# UŞAQ HÜQUQLARI

# Uşaq Hüquqları haqqında Konvensiyadan

**Maddə 13.1.** Uşaq öz fikrini azad ifadə etmək hüququna malikdir. Bu hüquqa hər cür informasiya və ideyaları sərhədlərdən asılı olmayaraq, şifahi, yazılı və ya çap edilmiş formada, incəsənət əsərləri formasında, yaxud uşağın istədiyi digər vasitələrin köməyi ilə axtarmaq, almaq və vermək azadlığı daxildir.

**Maddə 16.1.** Hər hansı bir uşaq onun şəxsi həyatı, ailə həyatı, mənzilinin toxunulmazlığı və ya yazışma sirri hüququnun həyata keçirilməsinə özbaşınalıqla və ya qeyri-qanuni surətdə müdaxilə obyekti, yaxud onun şərəf və ləyaqətinə qeyri-qanuni qəsd edilmə obyekti ola bilməz.

**Maddə 16.2.** Uşaq belə qeyri-qanuni müdaxilə və ya qəsddən müdafiə olunmaq hüququna malikdir.

**Maddə 20.1.** Öz ailə mühitindən müvəqqəti və ya daimi məhrum olan, yaxud özünün mənafeyi naminə belə mühitdə qala bilməyən uşaq dövlət tərəfindən xüsusi müdafiə edilmək və yardım almaq hüquqlarına malikdir.

**Maddə 27. 2.** Valideyn(lər) və ya uşağı tərbiyə edən digər şəxslər uşağın inkişafı üçün lazım olan həyat şəraitini öz bacarıqları və maliyyə imkanları daxilində təmin etməyə görə əsas məsuliyyət daşıyırlar.